# Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarının uğurlu nəticələri beynəlxalq miqyasda təqdir olunur

## *Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası ölkəmizin bu sahədəki təcrübəsini təşkilatın digər üzvlərinə nümunə kimi göstərir*

Özünəməxsus milli inkişaf modeli ilə əksər region ölkələrini sarsıdan qlobal böhranın mənfi təsirlərini əzmlə dəf edən Azərbaycanın beynəlxalq miqyasda ildən-ilə güclənən nüfuzu əsasən iqtisadi nailiyyətlərlə yanaşı, həm də siyasi liberallaşma və demokratikləşmə prosesinin dərinləşdirilməsi, insan hüquqlarının aliliyinin qorunması və məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən kompleks islahatlarla şərtlənir.







Zamanın inkişaf ahənginə adekvat olaraq ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə, habelə bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək tətbiqinə əsaslanan bu islahatlar statik xarakter daşımayıb, zamanla təkmilləşir, yeni məzmun və forma kəsb edir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ilin oktyabrından əzmlə davam etdirərək yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq məhkəmə hakimiyyətinin davamlı surətdə yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Dünya iqtisadi-maliyyə böhranının dərinləşdiyi son illərdə həyata keçirilən qabaqlayıcı tədbirlər, pozitiv tərəqqi meyillərinin qorunub saxlanılması paralel olaraq cəmiyyətin hüquq sisteminin liberallaşdırılmasına da geniş imkanlar açmışdır. Bütün bunların nəticəsidir ki, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, obyektiv və şəffaf şəraitdə hakim korpusunun formalaşdırılmasına, bu sahədə şəffaflığın təmin edilməsinə, elektron xidmətlərin genişləndirilməsinə xidmət edən islahatlar daha geniş vüsət almışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində yeni regional məhkəmələrin yaradılması və hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 5 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılmasının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən regional apelyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələr yaradılaraq fəaliyyətə başlamışdır. Məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq, hakimlərin sayı 50 faiz, məhkəmə aparatı işçilərinin sayı 75 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur.

Aparılan islahatlar çərçivəsində məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi - "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması, məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması ölkədə ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə xidmət etmişdir. Son illərdə Bakının Yasamal və Sabunçu rayonlarında, habelə Gəncə, Oğuz, Gədəbəy, Quba və Şəkidə yeni məhkəmə kompleksləri və binaları inşa edilərək istifadəyə verilmişdir.

2015-ci il noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin inzibati binasının açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: *"Ədalət pozulduqda əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür".*

Bu da təsadüfi deyildir ki, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) son illər öz hesabatlarında Azərbaycanda məhkəmə islahatlarına göstərilən diqqəti bir çox Avropa dövlətləri üçün nümunə göstərmişdir. Avropanın hətta bir sıra inkişaf etmiş ölkələrində belə məhkəmələrlə bağlı ciddi problemlərin hökm sürdüyü, hakimlərə təzyiqlərin göstərildiyi və bu halların Avropa Hakimlər Assosiasiyası səviyyəsində aşkar tənqid edildiyi bir zamanda CEPEJ-in ölkəmizdəki məhkəmə islahatlarını təqdir etməsi, şübhəsiz, obyektiv yanaşma kimi dəyərləndirilməlidir.

İslahatlar prosesinin keyfiyyətcə yeni mərhələsində qarşıda duran vacib məsələlərdən biri Azərbaycanın sosial-iqtisadi, mədəni və multikultural sferalarla yanaşı, həm də məhkəmə orqanlarının müstəqilliyinin möhkəmləndirilməsi, onların fəaliyyətinin ictimai tələbata adekvat olaraq müasirləşdirilməsi sahəsindəki nailiyyətlərinin beynəlxalq müstəvidə geniş təbliği, respublikamız haqqında obyektiv təsəvvürlərin formalaşdırılmasıdır. Ölkənin məhkəmə sistemində praktik və elmi-nəzəri fəaliyyəti, habelə fundamental araşdırmaları ilə tanınan hüquqşünas alimlər bu prosesdə yüksək milli təəssübkeşliklə iştirak edirlər. Məhkəmə-hüquq sahəsində ixtisaslaşmış nüfuzlu Avropa təsisatlarında təmsilçilik respublika hakimlərinin bir tərəfdən beynəlxalq təcrübə ilə yaxından tanış olmalarına, digər tərəfdən isə Azərbaycanın bu sahədə tətbiq etdiyi mütərəqqi yeniliklərin qlobal miqyasda təbliğinə yaxşı imkanlar açır.

Bu günlərdə Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi, hüquq elmləri üzrə fəlsəfə doktoru, CEPEJ-in Büro və Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin üzvü Ramin Qurbanovun və həmin komitənin sədri, Fransa Ali Məhkəməsinin Kollegiya sədri, Poitri Hüquq Universitetinin doktorantura şöbəsinin rəhbəri, professor Jan-Pol Janın həmmüəllifliyi ilə çapdan çıxmış "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: elmi və təcrübi əhəmiyyəti" adlı kitab da məhz ölkəmizin məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi sahəsindəki nailiyyətlərinin Avropa miqyasında daha bir etirafıdır.

Avropa Şurasının nüfuzlu qurumlarından sayılan CEPEJ-in 12 illik fəaliyyətinə həsr olunmuş xüsusi kitabın hazırlanması ilə bağlı komissiyanın bürosunda və plenar iclasında xüsusi qərar qəbul olunmuşdur. Nəşrin elmi məsləhətçiləri İsveçrənin Federal Ali Məhkəməsinin Baş Katibinin müavini, CEPEJ-in Avropa məkanında məhkəmə vaxtının idarəolunması Komitəsinin sədri, hüquq elmləri doktoru Jak Büler və İsveçrənin Auditorlar Məhkəməsinin sədri, CEPEJ-in Avropa məkanında ədalət mühakiməsinin keyfiyyəti məsələləri Komitəsinin sədri, hüquq elmləri doktoru Fransua Peşerdir.

Gərgin zəhmət bahasına, dərin elmi-təcrübi tədqiqatların, sanballı araşdırmaların və müqayisəli təhlillərin nəticəsi kimi ərsəyə gələn, Avropa Şurasının 22-ci elmi nəşri kimi rəsmi qeydiyyatdan keçən kitabın həmmüəlliflərindən birinin məhz azərbaycanlı alim olması, habelə ingilis, fransız, rus və Azərbaycan dillərində nəşr olunması ölkəmiz üçün kifayət qədər qürurverici məqamlardır. Yeri gəlmişkən qeyd etmək vacibdir ki, Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi, hüquq elmləri üzrə fəlsəfə doktoru Ramin Qurbanov CEPEJ-in Bürosunun və Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi Komitəsinin üzvü kimi son illər məhsuldar fəaliyyəti ilə fərqlənmiş, Avropanın bir sıra ölkələrində (Estoniya, İsveçrə, Litva, Slovakiya) aparılan monitorinqlərə rəhbərlik etmişdir. Obyektiv mövqeyi və rəyləri ilə komissiyada böyük rəğbət qazanan alim CEPEJ-də Azərbaycan haqqında obyektiv təsəvvürlərin formalaşmasına öz sanballı töhfələrini verir.

Ümumilikdə, ön söz, 5 fəsil və nəticədən ibarət kitabda komissiyanın başlıca fəaliyyət prinsipləri, vəzifələri, qərarları və hədəfləri barədə dolğun məlumatlar əksini tapmışdır. CEPEJ-in prezidenti vəzifələrinin icrasına yeni başlamış Qeorq Stava kitabın ön sözündə belə sanballı nəşrin hazırlanmasını razılıqla vurğulayaraq komissiyanın strateji məqsəd və vəzifələri barədə konseptual mülahizələrini bölüşmüşdür. Bildirilmişdir ki, komissiyanın yaradılmasında məqsəd üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsindən, habelə bununla bağlı Avropa Şurası tərəfindən qəbul edilmiş sənədlərin icrasının təmin olunmasından ibarətdir. Ədalət mühakiməsinin keyfiyyətinə, cəmiyyətdəki roluna və müstəqilliyinə xüsusi diqqət çəkən Qeorq Stava CEPEJ-in bu sahədə xüsusi meyarlarının, qiymətləndirmə göstəricilərinin yaradılması zəruriliyini qeyd etmişdir.

Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq elmləri doktoru Azər Cəfərov isə elmi nəşrə yazdığı ön sözdə CEPEJ-in Avropa Şurasının üzv dövlətlərində İnsan Hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulan ədalətli məhkəmə araşdırması hüququnun səmərəli təmin olunması məqsədilə gördüyü işləri razılıqla qeyd etmişdir. Azərbaycanın məhkəmə sisteminin müasir inkişaf tarixinin mühüm bir hissəsinin CEPEJ-lə əməkdaşlıq dövrünə təsadüf etdiyini vurğulayan Azər Cəfərov bunun nəticəsində əldə olunan mütərəqqi islahatların konseptual əhəmiyyətini diqqətə çəkmişdir.

"Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: elmi və təcrübi əhəmiyyəti" kitabının həmmüəllifləri - hüquq elmləri doktoru, professor Jan-Pol Jan və hüquq elmləri üzrə fəlsəfə doktoru Ramin Qurbanov CEPEJ-in 2002-2015-ci illərdəki fəaliyyətinin nəticələrini elmi və təcrübi təhlil süzgəcindən keçirərək konkret hüquqi nəticələrlə çıxış etmiş, maraqlı elmi ümumiləşdirmələr, müqayisəli təhlillər aparmışlar. Kitabda komissiyanın fəaliyyətinin Avropa Şurasına üzv ölkələr üçün elmi-praktik əhəmiyyəti geniş tədqiqata cəlb edilmiş, habelə müxtəlif komitələr tərəfindən hazırlanmış çoxdu sayda sənədlər beynəlxalq hüquq kontekstindən şərh olunmuşdur.

Kitabın I fəslində həmmüəlliflər xüsusi qeyd edirlər ki, CEPEJ Avropa Şurasının məşvərətçi və analitik qurumu olaraq ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində rəhbər qaydaların və ümumi standartların işlənib hazırlanması, habelə onların praktikada tətbiqi funksiyasını həyata keçirir. Bu fəsildə həmçinin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyətinin mahiyyəti və təşkilati əsasları, habelə komissiyanın vəzifələri şərh edilmişdir.

Kitabın II fəslində Avropa Şurasına üzv dövlətlərdə məhkəmə sisteminin qiymətləndirilməsi Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının əsas fəaliyyət istiqamətlərindən biri kimi təhlilə cəlb olunmuşdur. Həmmüəlliflər bu fəsildə Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin fəaliyyətindən, CEPEJ-in qiymətləndirmə üsullarından, "Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar"dan, eləcə də üzv dövlətlər üçün hazırlanmış məhkəmə sisteminin qiymətləndirilməsi hesabatlarından, habelə digər zəruri məsələlərdən söz açmışlar.

Elmi nəşrin III fəslində Avropa dövlətlərinin məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin idarə olunması sahəsində "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti"; IV fəsildə "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının Avropa dövlətlərində məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş fəaliyyəti"; V fəsildə "Mübahisələrin həllinin alternativ üsullarının tətbiqinə və məhkəmə qərarlarının icrası işində çətinliklərin həllinə münasibətdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti" fundamental hüquqi rakursdan araşdırılmışdır.

Kitabın "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası ilə üzv dövlətlər arasında əməkdaşlıq" adlanan VI fəslinin "Üzv dövlətlərlə sahəvi əməkdaşlığın xüsusiyyətləri (Azərbaycan Respublikasının misalında)" adlanan və Azərbaycandakı məhkəmə-hüquq islahatlarından bəhs edən 6.2-ci yarımfəsli xüsusilə maraq doğurur. Avropa Şurası kimi mötəbər qurumun elmi nəşrində Azərbaycandakı məhkəmə-hüquq islahatlarından geniş bəhs edən xüsusi yarımfəslin olması ölkəmizin bu sahədəki nailiyyətlərinin təbliği baxımından xüsusilə əhəmiyyətə malikdir. Bu obyektiv zərurət onunla şərtlənir ki, Avropanın kifayət qədər tanınmış siyasi təşkilatları bəzən ölkəmizə siyasi təzyiq cəhdi olaraq ictimai həyatın ən müxtəlif sahələrində - xüsusən də məhkəmələrin müstəqilliyinin gücləndirilməsi sahəsində əldə olunmuş nailiyyətlərə kölgə salmaq istəyirlər. Avropa İnsan Hüquqları Məhkəməsi kimi nüfuzlu beynəlxalq instansiyanın müəyyən qərarlarının hüquqi deyil, aşkar siyasi əsaslarla qəbul olunması və qərəzli səciyyə daşıması beynəlxalq hüququn bəzi dövlətlər üçün manipulyasiya vasitəsinə çevrildiyini bir daha təsdiqləyir. Azərbaycan son illərədək bu cür qərəzli münasibətin, "ikili standart" yanaşmaların şahidi olsa da, etiraf etmək lazımdır ki, ölkəmizin məhkəmə-hüquq sistemində əldə etdiyi nailiyyətlər müxtəlif səviyyələrdə, o cümlədən Avropa Şurası tərəfindən etiraf edilir.

Bu yarımfəsildə CEPEJ-in Avropa Şurasının bir sıra üzv dövlətləri ilə 12 sahəvi əməkdaşlıq layihəsi həyata keçirdiyini, həmin dövlətlər sırasında Fransa, Sloveniya, Malta, Hollandiya, Portuqaliya, Rusiya Federasiyası, İsveçrə və digər ölkələrlə yanaşı, Azərbaycanın da olduğu vurğulanır. Həmmüəlliflərin qənaətincə, xüsusi əməkdaşlıq layihələrindən biri "Azərbaycanda hakimlərin seçilməsinin siyasəti və qaydaları" olmuşdur. Belə ki, CEPEJ-in 16-cı plenar iclasında Azərbaycanda hakimlərin seçilməsi və təyin olunmasına aid qaydalar və prosedurların tədqiqatı və təhlilini aparmaq barədə qərar qəbul olunmuşdur: "Həmin qərara əsasən layihə 2011-ci ilin sentyabr ayında qeyd edilən sahədə ixtisaslaşan ekspertlər - Norveç Məhkəmələr İdarəsinin Beynəlxalq Katibliyinin rəisi, CEPEJ-in Büro üzvü Audun Berq (Norveç), Xorvatiyanın Ədliyyə Akademiyasının direktoru və CEPEJ-in Lissabon Şəbəkəsinin nümayəndəsi İvana Qoraniç (Xorvatiya), habelə Avropa Şurasının xüsusi nümayəndəsi tərəfindən həyata keçirilmişdir: "Aparılmış işlərin nəticəsi olaraq CEPEJ nümayəndələri tərəfindən müvafiq hesabat tərtib olunmuş və həmin hesabatda xüsusən qeyd edilmişdir ki, son 10 il ərzində Azərbaycan məhkəmə sisteminin vəziyyətini yaxşılaşdırmaq və özünü tənzimləmə strukturu və tədbirlərini Avropa Şurasının standartları səviyyəsinə qaldırmaq məqsədilə bir sıra irihəcmli islahatlar həyata keçirilmişdir".

Kitabın sözügedən yarımfəslində Azərbaycanda hakimlərin seçilməsi və təyin olunması ilə bağlı hüquqi prosedurlar da obyektivliyə və şəffaflığa, habelə məhkəmələrin müstəqilliyinə təminat yaradan mütərəqqi proses mexanizm kimi dəyərləndirilir. Bu xüsusda həmmüəlliflər hakimlərin təyin olunması prosesinin əsas iştirakçısı olan Məhkəmə-Hüquq Şurasının qanunla dəqiq müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərinə, funksiyalarına nəzər salırlar. Şura Azərbaycanda məhkəmə sisteminin inkişafı işində mühüm rol oynayır və fəaliyyətini, ilk növbədə, müstəqillik, qanunilik, şəffaflıq, səmərəlilik, idarəçilik, qərəzsizlik, obyektivlik əsasında qurmuş və cəmiyyətdə böyük hörmət qazanmışdır.

Elmi nəşrdə Hakimlərin Seçki Komitəsi (HSK) Məhkəmə-Hüquq Şurası tərəfindən yaradılan, namizədlərin seçilməsi və onların təyin edilməsinə dair təqdimatların hazırlanması işində fəal rol oynayan qurum kimi səciyyələndirilir. Kitabda həmçinin komitənin hakim vəzifəsinə obyektiv və şəffaf şəraitdə namizədlərin seçilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən də bəhs olunur: "Bu prosedurla müfəssəl qaydada yerində tanış olduqdan sonra CEPEJ ekspertləri belə qənaətə gəlmişlər ki, Azərbaycanda qüvvədə olan prosedur onun ədalətli seçim meyarlarına əsaslanması, şəffaf və kifayət qədər səmərəli olması şərtləri ilə Avropada qəbul edilmiş standart və tələblərə cavab verir. Müəlliflər tərəfindən həmçinin qeyd edilmişdir ki, hakimlərin seçilməsi işinin iştirakçıları olan qurumlar - Hakimlərin Seçki Komitəsi və Məhkəmə-Hüquq Şurası da Avropa standartlarına cavab verir".

Ölkəmizlə bağlı bu və digər faktların Avropa Şurasının elmi nəşrində əksini tapması Azərbaycanın insan hüquqlarının müdafiəsində əsas təminatçılardan olan məhkəmə hakimiyyətinin müstəqilliyini bütün dünyaya nümayiş etdirmək baxımından son dərəcə əhəmiyyətlidir. Kitabda Azərbaycanın məhkəmə sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə CEPEJ ekspertləri tərəfindən verilən tövsiyə və təkliflərin ölkəmiz tərəfindən ciddiliklə nəzərə alındığı da konkret faktlar əsasında göstərilir. Qeyd olunur ki, bu təkliflər hakimlərin müstəqilliyinin daha da gücləndirilməsini, məhkəmə hakimiyyətinin şəffaflığının, habelə ictimaiyyətin və hakim vəzifəsinə namizədlərin ona inamının daha da artırılmasını nəzərdə tutur.

Xaricdə ingilis, fransız və rus dillərində nəşr olunmuş bu kitabın elmi siqlətini yüksəldən və maraqlı edən digər vacib məqam burada Azərbaycanın məhkəmə-hüquq sahəsində dövlət siyasətinin həyata keçirilməsində bilavasitə yaxından iştirak edən, bu prosesə sanballı töhfələrini verən dövlət məmurlarının fikirlərinə istinad olunmasıdır. Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərovun, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin, Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun, habelə ədliyyə nazirinin müavini Azər Cəfərovun fikirlərinə istinad edilməsi ölkəmizin əldə etdiyi nailiyyətlərin Avropa Şurası səviyyəsində yüksək dəyərləndirildiyinə dəlalət edir.

Xüsusi vurğulamaq lazımdır ki, kitab AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının qərarı ilə Azərbaycan dilində nəşr olunmuşdur. Monoqrafiyadan məhkəmə sisteminin təşkilinə məsul olan şəxslər, hüquq cəmiyyətinin nümayəndələri, o cümlədən ədliyyə və prokurorluq orqanlarının əməkdaşları, hakimlər, vəkillər və məhkəmə işçiləri, habelə hüquqşünas-alimlər və bu məsələ ilə maraqlanan şəxslər istifadə edə bilərlər. Kitab ümumilikdə, komissiyanın fəaliyyəti və Azərbaycanın bu qurumla əlaqələri, habelə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları və bu islahatlara beynəlxalq səviyyədə verilən qiymətlə maraqlananlar üçün sanballı elmi mənbədir.

*"Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: elmi və təcrübi əhəmiyyəti" elmi monoqrafiyası bir daha təsdiqləyir ki, respublikamızda ardıcıl və sistemli şəkildə həyata keçirilən məhkəmə-hüquq islahatları beynəlxalq miqyasda, o cümlədən Avropa geosiyasi arealında diqqətlə izlənilir, təqdir olunur. Azərbaycan bu gün beynəlxalq miqyasda sadəcə zəngin neft-qaz ölkəsi kimi deyil, həm də demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşan, sürətlə modernləşən dövlət kimi tanınır. İnanırıq ki, həyata keçirilən islahatlar nəticəsində Azərbaycan yaxın illərdə məhkəmə-hüquq sisteminin mütərəqqi xarakterinə görə dünyanın ən qabaqcıl dövlətləri ilə eyni sırada dayanacaqdır.*

***İlham MƏMMƏDZADƏ,***
***AMEA Fəlsəfə və Hüquq İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor***